12 iyul 2015-ci il tarixində Yaponiya hökümətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində Şəmkir Rayon İcra Hakimiyyətinin binasında Şəmkir rayon İcra Hakimiyyətinin Başçısı cənab Alimpaşa Məmmədovun, Gədəbəy Rayon İcra Hakimiyyəti Başçısının Müavini cənab Vüsal Musayev, Mill Məclisin deputatları xanım Məlahət İbrahimqızı və xanım Sevinc Hüseynovanın iştirakı ilə aşağıdakı İmzalanma Mərasimləri keçirilmişdir.

**"Şəmkirin İrmaşlı kəndində Tibb Məntəqəsinin Tikinitisi"** layihəsi

Layihənin məqsədi yeni tibb məntəqəsi tikməklə beş kənd sakinlərinin (İrmaşlı, Dağ İrmaşlı, Şəhidlər, Əhmədli və Göyməmmədlilər) tibbi xidmətdən istifadəsini yaxşılaşdırmaqdır. Layihənin ümumi məbləği **90,840 ABŞ** dolları təşkil edir.

**Səfir Azərbaycan dilində nitq söylədi**




**Milli Məclisin deputatı xanım M. İbrahimqızı ilə müqavilələrin mübadiləsi**




**İrmaşli kəndinin hal-hazırki tibb məntəqəsinin fəaliyyəti aşağı səviyyədədir.**
**Yeni tam təchiz olunmuş tibb məntəqəsi layihə çərçivəsində inşa olunacaq.**





**“Gədəbəyin Söyüdlü kəndində Su Təchizatı Sisteminin Tkintisi” layihəsi**

Layihənin əsas məqsədi yeni su təchizatı sistemini inşa etməklə Söyüdlü kənd sakinlərinin içməli su problemini aradan qaldırmaqdır. Layihənin ümumi məbləği **90,900 ABŞ** dolları təşkil edir.

**İmzalanma mərasimi**




**Milli Məclisin deputatı xanım S.Hüseynova ilə müqavilələrin mübadiləsi**




**Paslanmış, istifadə üçün yararlı olmayan su borusu**



**Kəndin istifadə üçün yararlı olmayan su kollektoru**



**Yeni su təchizatı sistemi layihə çərçivəsində cari ilin sonuna kimi inşa olunacaq.**